AZƏRBAYCANDA
VƏTƏNDAŞ CƏMİYYƏTİNİN
İNKİŞAFINA YARDIM ASSOSİASİYASI

# REFERENDUM

## 18 mart 2009

**Bakı 2009**

Müəllif: tarix elmləri namizədi Məhərrəm Zülfüqarli

Mündəricat

Ön söz
1. Azərbaycan Respublikasında keçirilmiş referendumlar
2. 18 mart 2009 - cu il referendumuna aid sənədlər

“AZƏRBAYCANDA VƏTƏNDAŞ CƏMİYYƏTİNİN İNKİŞAFINA YARDIM ASSOSİASİYASI” (AVCİYA) - www.avciya.az

## Ön söz

Vətəndaşların seçki hüquqlarının həyata keçirilməsində seçkilərlə yanaşı, ümumxalq səsverməsi, referendum da mühüm əhəmiyyət kəsb edir. Referendum ümumdövlət və ya yerli əhəmiyyətə malik dövlət, yaxud özünüidarəetmə xarakterli qərarların qəbul edildiyi səsvermədir. Referendumda qoyulan sual və ya təklif olunan variantların məcmusu referenduma çıxarılan məsələ adlanır. Beynəlxalq təcrübəyə əsasən demək olar ki, referenduma fövqəladə və ya təxirəsalınmaz xarakterli xüsusi bilik tələb edən, habelə cavabı qabaqcadan məlum olan məsələlər çıxarılmır. Referenduma çıxarılan məsələlər hər bir ölkənin qanunvericiliyi ilə müəyyən edilir. Referendum fövqəladə, hərbi və ya mühasirə vəziyyətində keçirilə bilməz. Əksər ölkələrdə eyni məsələ ilə bağlı ikinci dəfə referendumun keçirilməsinə yalnız müəyyən müddət ötdükdən sonra yol verilir.

Referendum keçirilməsi ilə bağlı Avropa ölkələrində müxtəlif təçrübə mövcuddur. Məsələn, Böyük Britaniyada əvvəlki illərdə refendum keçirilməməsinə baxmayaraq, son illərdə bəzi məsələlərə görə referendum keçirilib. Belçikada referendumdan çox nadir hallarda istifadə edilir. Bu ölkələrdən fərqli olaraq Isveçrədə federal səviyyədə bu günə kimi 400 dəfədən artıq referendum keçirilib.

Fransa Konstitusiyasına görə, referendum təşəbbüsü prezidentə məxsusdur. O, öz təşəbbüsü ilə referendum elan edir və referenduma çıxarılan məsələləri müəyyən edir. Fransanın Konstitusiya Şurası referendumun keçirilmə prosedurundan şikayətlərə baxılması qaydalarını da müəyyən edib. (1)

İtaliyada referendum keçirmək üçün seçicilərin 500 min imzasını toplamaq lazımdır. Macarıstanda parlamentin 50 deputatı belə təşəbbüslə çıxış edə bilər. Hər bir ölkədə referendum təşəbbüsü ilə bağlı zəruri qaydalar müəyyən edilib. Əgər zəruri şərtlərə əməl olunduqdan sona referendumla bağlı qəti qərarı bəzi ölkələrdə parlament, digərlərində isə prezident qəbul edir.

Referenduma çıxarılan məsələ ilə bağlı adətən seçicidən konkret olaraq müsbət (hə) və ya mənfi (yox) cavabı verməsi tələb olunur. Lakin bəzi ölkələrdə seçicidən bir neçə sualla cavab verməsi, bəzən bir neçə mümkün qərardan birini seçmək təklif olunur.

Azərbaycan Respublikasında keçiriləcək referendum ərəfəsi prezident seçkiləri və prezidentlərin səlahiyyət müddətləri ilə bağlı beynəlxalq təcrübənin öyrənməsi mühüm əhəmiyyət kəsb edir. Bu təcrübəni öyrənərkən nəzərə almaq lazımdır ki, konstitusiyalı monarxiya, parlamentli respublika və prezidentli respublikalarda prezidentlərin səlahiyyətləri bir – birindən köklü surətdə fəqlənir. ABŞ-ın Stenford Universitetinin tədqiqatları nəticəsində məlum olmuşdur ki, 1992-2006-cı illər arasında 26 ölkədə prezidentlər öz səlahiyyət müddətlərinin uzadılmasına nail olublar. 14 ölkədə hakimiyyət müddətinə məhdudiyyətləri tənzimləyən konstitusiya normaları dəyişdirilib, 12 ölkədə bu prosesi konstitusiyaya toxunmadan, dövlət başçısının səlahiyyət müddətini birbaşa artırmaqla aparılıb. Bəzi ölkələrdə prezidentin hakimiyyət müddətinə

məhdudiyyətlər mövcuddur. Lakin belə məhdudiyyətlərin qoyulmadığı ölkələr də var ki, bunlar aşağıdakılardır:

- İslandiya. Prezident məhduddiyyət olmadan 4 illik müddətə seçilir;
- İspaniya. Parlament seçkilərində qalib gəlmiş partiyanın rəhbəri 4 il müddətinə prezident seçilir;
- İtaliya. Prezidenti parlamentarlar və regional hakimiyytlərin nümayəndələrindən ibarət Elektoral Kollegiya 7 illik seçir. Heç bir məhdudiyyət yoxdur;
- Hindistan. Prezidenti parlamentarlar və ştat nümayəndələrindən ibarət Elektoral Kollegiya 5 illik seçir. Məhdudiyyət yoxdur və s.

**Prezidentlik müddəti 5 ildən artıq olan ölkələr:**

- Rusiya. 31 dekabr 2008 – cil tarixdə qüvvəyə minmiş qanuna görə Prezidentin səlahiyyət müddəti 4 ildən 6 ilə, dövlət dumasının səlahiyyətləri isə 4 ildən 5 ilə qədər artırılıb;
- Fransa. Prezidentin səlahiyyət müddəti 7 ildir;
- Avstriya. Prezident ümumi seçkilərdə 6 illik seçilir;
- Filippin. Prezident ümumi seçkilərdə 6 il müddətinə seçilir;
- Finlandiya. Prezident ümumi seçkilərdə 6 illik seçilir;
- İrlandiya. Prezident ümumi seçkilərdə 7 il müddətinə seçilir. (2)

Hər bir ölkədə referdum keçirilərkən beynəlxalq təcrübənin öyrənilməsi ilə yanaşı, yerli spesifik xüsusiyyətlərin də nəzərə alınması vacibdir. Bu amillərin nəzərə alınması hər bir ölkənin gələcək inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

## I Azərbaycan Respublikasında keçirilmiş referendumlar

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 1-ci hissəsinin 18-ci bəndinə və 109-cu maddəsinin 18-ci bəndinə görə referendum təyin etmək hüququ Azərbaycan Respublikasının Milli Məclisinə və Azərbaycan Respublikasının Prezidentinə məxsusdur. Azərbaycan Respublikasında əksər dövlətlərdə olduğu kimi referendum yolu ilə qəbul edilmiş qərarlar adi qanunlardan yüksək hüquqi qüvvəyə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 2- ci maddəsinin II bəndində deyilir: “Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir ”

3 – cü maddədə referendum yolu ilə həll edilən aşağıdakı məsələlər müəyyən edilib:

- Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər;
- Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi;
- Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi

3 – cü maddənin III bəndində isə referendum çıxarılması mümkün olmayan məsələlər göstərilib. Bunlar aşağıdakılardır:

1. vergilər və dövlət büdcəsi;

2. amnistiya və əfvetmə;
3. seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi. (3)

Azərbaycanda həm sovet dövründə, həm də dövlət müstəqilliyi bərpa etdikdən sonra müxtəlif məsələrlə bağlı referendumlar keçirilib. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı ( 18 oktyabr 1991 – ci il) qəbul olunandan sonra ölkə üzrə 4 Referendum keçirilib ki, bunlar da aşağıdakılardır:

- **29 dekabr 1991-ci il -** Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr 1991 – ci il qərarı ilə keçirilən referendumun bülletenlərində yalnız, "Siz "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktına tərəfdarsınızmı?" sualı var idi. Referendiumda 3.751.174 nəfər və ya səsverənlərin siyahılarına daxil edilmiş vətəndaşların 95,27 faizi iştirak etmiş, səsverənlərin 99,58 faizi sualın lehinə 0,2 faizi isə əleyhinə səs vermişdir.
- **29 avqust 1993 – cü il –** Azərbaycan Respublikasının Milli Məclisi 29 iyul 1993-cü il qərarı ilə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında referendum keçirilib. Səsverənlərin siyahılarına salınmış 4.097.367 vətəndaşın 3.767.928 nəfəri və ya 92,02 faizi əleyhinə, 77.730 nəfəri, yaxud 2,1 faizi isə lehinə səs verib.
- **12 noyabr 1995-ci il -** Referendum Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə yeni Konstitusiyanın qəbulu üçün keçirilib. 3 milyon 556 min 277 nəfərin iştirak etdiyi ümumxalq səvermısində 91,9 faiz konstitusiyanın qəbul edilməsi lehinə, 6,63 faizi əleyhinə səs verib.Yeni konstitusiya 1995-ci il dekabrın 5-də qüvvəyə minmiş, həmin gündən 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası (Əsas Qanunu) qüvvədən düşmüşdür.

**24 avqust 2002-ci il -** Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 21 iyun 2002 - ci il qərarı və Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikası Konstitusiyasına dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında" 22 iyun 2002 – ci il tarixli Fərmana əsasən keçirilib. Referendumda seçicilərdən Konstitusiyanın 24 maddəsinə dəyişikliklə bağlı təkilifə öz münasibətlərini bildirmişlər. Referendumda ölkə üzrə 83,86 faiz seçici iştirak edib və əksəriyyət Azərbaycan Respublikası Konstitusiyasına dəyişikliklərin qəbul edilməsinə səs verib.

## II 18 mart 2009 – cu il referendumuna aid sənədlər

Azərbaycan Respublikasında 18 mart 2009 – cu il tarixidə keçiriləcək refendumla bağlı qərar aşağıdakı hüquqi proseduraya əməl olunması ilə qəbul olunub. Əvvəlcə, Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi ilə bağlı irəli sürülən referendum təşəbbüsü Azərbaycan Respublikası Milli Məclisində geniş müzakirə edilb. Bundən sonra Milli Məclisin 19 dekabr 2008-ci il tarixli qərarı ilə "Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi haqqında referendum aktı" layihəsi qəbul olundu və Milli Məclis həmin layihəni rəy verilməsi üçün

Konstitusiya Məhkəməsinə göndərdi. Bundn sonra Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu bu layihəyəni müzakirə edərək 18 mart 2009 – cu il tarixdə referendum keçirilməsi haqqında qərar (24 dekabr 2008-ci il) qəbul etdi.

18 mart 2009 – cu il tarixdə keçiriləcək Referendumda Konstitusiyanın 29 maddəsinə 41 dəyişiklik təklif olunur ki, bunlardan da 17-si maddələrə yeni hissələrin və ya bəndlərin əlavə edilməsi, 7 - si maddələrdə sözlərin əvəz edilməsi, 7 - si maddələrə yeni sözün və ya sözlərin əlavə olunması, 6 - sı maddələrə yeni cümlələrin əlavə olunması, 2 - si maddənin yeni redaksiyada verilməsi, 1 - i maddənin adının dəyişdirilməsi, 1 – i isə maddədən sözün çıxarılması ilə bağlıdır.

Mərkəzi Seçki Komissiyasına 14 təşəbbüs qrupu müraciət edərək imza vərəqələri götürüb. Bunlardan "Demokratik Azərbaycan Dünyası" imza vərəqələrini qaytarmayıb. "Abad kənd", "Azad söz", "Azərbaycan Xalq Cümhuriyyəti - AXC", "Milli İstiqlal" təşəbbüs qruplarının topladıqları yararlı imzaların sayı qeydiyyat üçün kifayət etmədiyinə görə qeydə alınmayıb. Digər 9 təşəbbüs qrupu qeydə alınıb ki, bunlar da "Yeni Azərbaycan", "Şəhər", "Tərəqqi", "Hüquq və Demokratiya", "Vətəndaş Cəmiyyəti", "Davamlı İnkişaf Naminə", "Zəka", "Qarabağ və Respublika Uğrunda Hərəkat" və "Respublikaçılar" təşəbbüs qrupudur.

Referendum üzrə təşviqat qrupu yaradılması ilə bağlı 116 Dairə Seçki Komissiyasına 83484 təşəbbüsçü 595 səlahiyyətli nümayəndə vasitəsilə 125 bildiriş təqdim edib. 125 təşəbbüs qrupu imza vərəqələri alıb və hamısı da vaxtında geri qaytarıb. Bunlardan yalnız 44 saylı Sumqayıt-Abşeron Seçki Dairəsindən 505 nəfər təşəbbüsçünü təmsil edən "Vicdan I" təçəbbüs qrupunun qeydə alınmasından imtina edilib.

**Mərkəzi Seçki Komisiyasının(MSK) Referendumla bağlı qəbul etdiyi sənədlər:**

MSK Referendumla bağlı qəbul etdiyi təlimatlar:

1. Referendum üzrə təşviqat qruplarının yaradılması məqsədilə referendum üzrə təşəbbüs qruplarının formalaşdırılması haqqında;
2. Referendum üzrə təşviqat qrupunun yaradılması məqsədilə seçici imzalarının toplanması üçün imza vərəqələrinin verilməsi;
3. Referendum üzrə təşviqat qrupunun qeydə alınması üçün seçici imzalarının toplanması və müvafiq sənədlərin seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında;
4. Referendumun hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki (referendum) komissiyaları arasında bölüşdürülməsi, göstərilən vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi qaydaları haqqında;
5. Referendum üzrə təşviqat qruplarının xüsusi hesablarının açılması qaydaları haqqında;
6. Referendum üzrə təşviqat qruplarının referendum üzrə maliyyə fondlarına vəsaitin daxil olması, xərclənməsi uçotunun aparılması və hesabatı qaydaları haqqında;
7. Qeydə alınmış (alınmamış) referendum üzrə təşviqat qruplarının aldıqları pul vəsaitlərinin geri qaytarılması qaydaları haqqında;

8. Kütləvi informasiya vasitələri ilə referendumqabağı təşviqatın aparılması qaydaları haqqında;
9. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin referendumda iştirakına dair;
10. Referendum zamanı Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus olan sektorunda yerləşən neft platformalarında, xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində, azadlıqdan məhrumetmə yerlərində və istintaq təcridxanalarında səsvermənin təşkili haqqında;
11. Referendum zamanı Azərbaycan Respublikasının hüdudlarından kənarda səsvermənin təşkili haqqında;
12. Referendum zamanı hərbi hissələrdə səsvermənin təşkilinə dair;
13. Referendumda seçicilərin vaxtından əvvəl səs verməsi qaydaları haqqında;
14. Referendum zamanı səsvermə günü istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı;
15. Referendumda səsvermənin nəticələri haqqında məntəqə seçki (referendum) komissiyasının yekun protokolunun doldurulması qaydasına dair;
16. Referendumda səsvermənin nəticələri haqqında dairə seçki (referendum) komissiyasının yekun protokolunun doldurulması qaydasına dair;
17. Məntəqə seçki (referendum) komissiyalarının fəaliyyətində "Referendumda səsvermə günü üçün yaddaş" kitabçasının tətbiqinə dair.

MSK – nın qəbul etdiyi təlimatlar işərisində səsvermə prosesinə aid olanlar aşağıdakılardır:

Azərbaycan Respublikası Mərkəzi Seçki
Komissiyasının 8 yanvar 2009-ci il tarixli
1/4-4 saylı Qərarı ilə təsdiq edilmişdir.

Referendum zamanı Azərbaycan Respublikasının hüdudlarından kənarda səsvermənin təşkili haqqında

Təlimat

1. Azərbaycan Respublikasından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının həyata keçirilməsinə Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 35.6-cı maddəsinə əsasən respublikamızın diplomatik nümayəndəlikləri və konsulluq idarələri cavabdehdirlər.

2. Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyədə olan Azərbaycan Respublikası vətəndaşlarının seçici siyahılarına daxil edilməsi üçün onların Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi və daha çox yaşaması, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və ya konsul idarələrinin müəyyənləşdirdiyi uzunmüddətli xarici ezamiyyələrdə olması faktı əsas götürülür.

3. Referendum zamanı səsvermə günü xarici dövlətlərdə olan seçicilərin səs verməsi və səslərin hesablanması üçün seçki (referendum) məntəqələri (bundan sonra – seçki məntəqəsi) seçicilərin olduğu ərazilərdə Azərbaycan Respublikasının diplomatik nümayəndələrinin və ya konsul idarələrinin rəhbərləri tərəfindən konsul qeydiyyatına durmuş seçicilərin sayı 50-dən artıq olduqda səsvermə gününə azı 30 gün qalmış yaradılır.

4. Referendum zamanı səsvermə günü xarici dövlətlərdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsul idarəsi mövcud deyilsə və ya Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsul idarəsində Seçki Məcəlləsinin 35.6-cı maddəsinə uyğun olaraq seçki məntəqəsi yaradılmayıbsa, həmin xarici dövlətdə olan Azərbaycan Respublikasının vətəndaşları səsvermədə iştirak etmirlər.

5. Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan seçicilər seçki (referendum) dairələri (bundan sonra – seçki dairəsi) üzrə siyahıya alınırlar. Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşayan, yaxud uzunmüddətli xarici ezamiyyədə olan və Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərində və konsul idarələrində qeydə alınmış seçicilərin sayı haqqında məlumatları Azərbaycan Respublikasının Mərkəzi Seçki (Referendum) Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi təqdim edir. Mərkəzi Seçki Komissiyası həmin məlumatlar əsasında göstərilən seçicilərin siyahıya alınması üçün müvafiq seçki dairələrinin siyahılarını təsdiq edir.

6. Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılmış seçki məntəqələri üzrə seçicilərin siyahıları Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliyinin və ya konsul idarəsinin rəhbərlərinin seçicilər haqqında verdikləri məlumatlar əsasında, səsvermə gününə azı 25 gün qalmış müvafiq məntəqə seçki (referendum) komissiyası (bundan sonra – məntəqə seçki komissiyası) tərəfindən təsdiq edilir.

7. Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə seçki sənədlərinin diplomatik nümayəndəliklərdə və konsul idarələrində yerləşən seçki məntəqələrinə çatdırılmasını təmin edir.

8. Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyası tərərəfindən səsverməyə yekun vurularkən xaricdə yerləşən seçki məntəqələrindən faks vasitəsilə alınmış məlumatlar referendumun nəticələri haqqında yekun protokoluna daxil edilir.

9. Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılan seçki məntəqələrində səsvermənin nəticələri ilə bağlı məlumatların dərci məsələsi yerli şərait nəzərə alınmaqla Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərinin və konsul idarələrinin rəhbərləri tərəfindən həll edilir.

10. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi xaricdə yerləşən diplomatik nümayəndəliklərdə və konsul idarələrində təşkil olunmuş seçki məntəqələri ilə fasiləsiz əlaqə saxlanmasını təmin etmək üçün lazımi tədbirlər görməlidir.

Azərbaycan Respublikası Mərkəzi Seçki
Komissiyasının 8 yanvar 2009-ci il tarixli
1/4-5 saylı Qərarı ilə təsdiq edilmişdir.

Referendum zamanı hərbi hissələrdə səsvermənin təşkilinə dair

Təlimat

1. Hərbi qulluqçuların səsvermədə iştirakı qaydası Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 35.5-ci maddəsi və bu Təlimatla tənzimlənir.
2.Hərbi qulluqçular hərbi hissənin yerləşdiyi ərazidə yaradılan ümumi seçki (referendum) məntəqələrində (bundan sonra – seçki məntəqəsi) səs verirlər. Yaşayış məntəqələrindən kənarda yerləşən hərbi hissələrdə seçki məntəqələrinin yaradılmasına yalnız o halda yol verilir ki, hərbi qulluqçuların ümumi seçki məntəqələrinə ictimai nəqliyyatla çatdırılması üçün 1 saatdan çox vaxt lazım olsun və hərbi qulluqçuların ümumi sayı 50-dən artıq olsun. Belə hallarda seçki məntəqələri səsvermə gününə ən azı 50 gün qalmış, müstəsna hallarda isə müvafiq dairə seçki (referendum) komissiyasının (bundan sonra – dairə seçki komissiyası) qərarına uyğun olaraq hərbi hissələrin komandirləri tərəfindən səsvermə gününə azı 5 gün qalmış yaradılır.
3. Sərhəd qoşunlarının hərbi qulluqçuları və hərbi münaqişə zonasında yerləşdirilən hərbi qulluqçular, habelə müvafiq icra hakimiyyəti orqanlarının təqdimatı əsasında ümumi məntəqələrdə səs verməsi mümkün olmayan hərbi hissələrin hərbi qulluqçuları hərbi hissələrdə yaradılan seçki məntəqələrində səs verirlər. Seçiciyə referendum üzrə səsvermə bülleteni zabitin şəxsi vəsiqəsi və ya hərbi bilet təqdim edildikdə verilir.
4.Seçki məntəqələrində seçki komissiyalarının işlədiyi otaqlara və səsvermə otaqlarına Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada müvafiq seçki komissiyalarının bütün üzvlərinin, referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin, müşahidəçilərin maneəsiz daxil olmasına imkan yaradılmalıdır.
5.Hərbi hissələrin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin siyahıları hərbi hissə komandirlərinin seçicilər haqqında məlumatı əsasında səsvermə gününə azı 25 gün qalmış məntəqə seçki komissiyaları tərəfindən dəqiqləşdirilir.
6.Hərbi hissələrdə seçki məntəqələri hərbi hissə komandiri tərəfindən elə yerdə təşkil edilməlidir ki, həmin seçki məntəqəsinə giriş maneəsiz olsun.
7.Hərbi hissədə seçki məntəqəsi yaradılmayıbsa, hərbi hissənin komandiri seçicilər haqqında məlumatları dəqiqləşdirir və səsvermə gününə azı 35 gün qalmış müvafiq məntəqə seçki komissiyasına təqdim edir. Seçici siyahıları 2 nüsxədə tərtib edilir. Seçici siyahısına daxil edilmiş seçicilər haqqında məlumatlar siyahıda əlifba qaydasında yerləşdirilir. Siyahılarda seçicinin soyadı, adı, atasının adı, doğulduğu il, məskunlaşma yerinin ünvanı və seçki məntəqəsinin nömrəsi göstərilir.
8.Hərbi hissədən kənarda yaşayan hərbi qulluqçular seçici siyahılarına yaşayış yeri üzrə ümumi əsaslarla daxil edilirlər.
9.Hərbi hissədə hərbi qulluqçu olan seçicilərin siyahısı, onların hərbi hissənin yerləşdiyi ərazidə yaşayan ailə üzvlərinin və digər seçicilərin siyahısı hərbi hissənin komandiri tərəfindən tərtib edilir.

Azərbaycan Respublikası Mərkəzi Seçki
Komissiyasının 8 yanvar 2009-ci il tarixli
1/4-6saylı Qərarı ilə təsdiq edilmişdir.

Referendumda seçicilərin vaxtından əvvəl
səs verməsi qaydaları haqqında

İ Z A H

1. Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 104.4-cü maddəsinə əsasən, müvafiq seçki (referendum) komissiyası (bundan sonra – seçki komissiyası) referendum günü Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə, uzaq və yolu çətin yerlərdə səsvermə gününə ən çoxu 10 gün qalmış səsverməni keçirməyə icazə verə bilər. Bunun üçün müvafiq seçki komissiyası bu barədə qərar qəbul edir.

1.1. Referendum günü səsvermə saat 8.00-dan 19.00-a kimi keçirilir.

1.2. Müvafiq dairə seçki komissiyası səsvermə gününə ən geci 20 gün qalmışadək Azərbaycan Respublikasının Mərkəzi Seçki (Referendum) Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) müraciət edərək, vaxtından əvvəl səsvermə keçirilməsinin səbəbləri barədə əsaslandırılmış məlumat verməlidir.

1.3. Dairə seçki komissiyası təqdim etdiyi həmin məlumatda vaxtından əvvəl səsvermənin keçirilməsi nəzərdə tutulan seçki (referendum) məntəqələrinin (bundan sonra – seçki məntəqəsi) və həmin məntəqələrin seçici siyahılarındakı seçicilərin sayını, həmçinin referendum üzrə səsvermə bülletenlərinin zəruri sayını göstərməlidir.

1.4. Dairə seçki komissiyasının müraciətinə əsasən Mərkəzi Seçki Komissiyası səsvermə gününə ən geci 10 gün qalmış, müvafiq dairə seçki komissiyasına lazımi sayda referendum üzrə səsvermə bülletenlərini dairə seçki komissiyası sədrinin və katiblərinin iştirakı ilə tərtib olunmuş akt əsasında verir.

Müstəsna hallarda, Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə təşkil edilmiş seçki məntəqələri üçün referendum üzrə səsvermə bülletenlərinin, eləcə də səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyaları protokollarının mətni radioqram və ya başqa texniki vasitələrlə çatdırıla bilər.

1.5. Seçki Məcəlləsinin tələblərinə müvafiq olaraq məntəqə seçki komissiyası səsvermə başa çatdıqdan sonra 24 saatdan gec olmayaraq səsvermənin nəticələri haqqında protokolu dairə seçki komissiyasına təqdim edir.

1.6. Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus olan sektorunda yerləşən neft platformalarında, səsvermə günü üzən gəmilərdə, seçicilərin müvəqqəti olduqları yerlərdə (xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində), hərbi hissələrdə, xarici dövlətlərdə, azadlıqdan məhrumetmə yerlərində, istintaq təcridxanalarında və müvəqqəti saxlanma yerlərində seçici siyahılarına daxil edilmiş bütün seçicilər səsvermədə iştirak ediblərsə, məntəqə seçki komissiyaları səsvermənin vaxtından əvvəl qurtarması haqqında məlumat verə bilərlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki
Komissiyasının 8 yanvar 2009-ci il tarixli
1/4-7 saylı Qərarı ilə təsdiq edilmişdir.

Referendum zamanı səsvermə günü istifadə edilən
şəxsiyyəti təsdiq edən sənədlərin

S İ Y A H I S I

1. Azərbaycan Respublikasının ərazisində referendum üzrə səsvermə günü istifadə edilən sənədlər.

1.1 Azərbaycan Respublikasının vətəndaşları üçün:
–Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi;
–Azərbaycan Respublikası vətəndaşının müvəqqəti şəxsiyyət vəsiqəsi.
O cümlədən:
1.2. Qaçqın və məcburi köçkün vətəndaşları üçün:
bu siyahının 1.1-ci bəndində göstərilən şəxsiyyətlərini təsdiq edən sənəd yoxdursa, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən müəyyənləşdirilmiş formalı vəsiqə.
1.3. Həqiqi və ya müddətli hərbi xidmətdə olan hərbi qulluqçular üçün:
–zabitin şəxsi vəsiqəsi;
–hərbi bilet.
1.4. Barələrində həbs növündə qəti imkan tədbiri seçilərək istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər üçün:
–Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənəd.
1.5. Azadlıqdan məhrumetmə yerlərində və xüsusi müəssisələrdə cəza çəkən məhkumlar üçün:
–Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş məhkumun şəxsiyyətini təsdiq edən sənəd.
1.6. Azərbaycan Respublikasının ərazisində azı 5 il daimi yaşayan vətəndaşlığı olmayan şəxslər üçün:
– vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi.
2. Azərbaycan Respublikasının hüdudlarından kənarda səsvermə günü istifadə edilən sənədlər.
2.1. Azərbaycan Respublikasının vətəndaşları üçün:
- ümumvətəndaş pasportu;
- xidməti pasport;
- diplomatik pasport.

Azərbaycan Respublikası
Mərkəzi Seçki Komissiyasının
30 dekabr 2008-ci il tarixli
31/140 saylı Qərarı ilə təsdiq edilmişdir.

**AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ ÜÇÜN 2009-CU İL MARTIN 18-NƏ TƏYİN EDİLMİŞ ÜMUMXALQ SƏSVERMƏSİNİN (REFERENDUMUN) HAZIRLANIB KEÇİRİLMƏSİ ÜZRƏ ƏSAS HƏRƏKƏT VƏ TƏDBİRLƏRİN**

**TƏQVİM PLANIN MÜŞAHİDƏÇİLƏRƏ AİD HİSSƏSİ**

| | | | |
|---|---|---|---|
| Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparılmasına dair ərizələrin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi | Aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı öz təşəbbüsü ilə, referendum üzrə təşviqat qrupunun, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasın-da;<br><br>Beynəlxalq (xarici) müşahidəçilər (qanunla müəyyən-ləşdirilmiş qaydada müvafiq dəvət əsasında Azərbaycan Respublikasına gələrkən Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə | Referendumun elan edildiyi gündən başlayaraq səsvermənin keçirilməsi gününə 10 gün qalanadək M a d d ə l ə r : 1.1.19, 40.5,<br>40.6, 44 | 2009-cu il martın 8-dək |
| Seçki dairəsinin ərazisində müşahidə aparılma-sına dair ərizələrin müvafiq seçki dairəsinin dairə seçki komissiyasına təqdim edilməsi | Aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı öz təşəbbüsü ilə, referendum üzrə təşviqat qrupunun, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında | Referendumun elan edildiyi gündən başlayaraq səsvermənin keçirilməsinə 5 gün qalanadək<br><br>M a d d ə l ə r : 1.1.19, 40.5, 40.7 | 2009-cu il martın 13-dək |
| Səsvermə gününədək müvafiq seçki komissiyalarının iclaslarını müşahidə etmək üçün Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə xüsusi icazə almaqdan ötrü Mərkəzi Seçki Komissiyasına müraciət edilməsi | Aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı öz təşəbbüsü ilə, referendum üzrə təşviqat qrupunun, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında; Beynəlxalq (xarici) müşahidəçilər (qanunla müəyyənləşdirilmiş qaydada müvafiq dəvət əsasında Azərbaycan Respublikasına gələrkən Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə) | Referendumun elan edildiyi gündən başlayaraq səsvermənin keçirilməsinə 10 gün qalanadək M a d d ə l ə r : 1.1.19, 40.4,<br><br>40.5, 40.13, 44 | 2009-cu il martın 8-dək |

*Təlimata 1saylı əlavə*

Azərbaycan Respublikasının
Mərkəzi Seçki Komissiyasına

___________________yaşayan
*yaşayış yerinin ünvanı*
_________________________
*şəxsiyyət vəsiqəsinin*
__________________________
və *ya onu əvəz edən sənədin seriyası,*
_____________________ malik
*nömrəsi və verilmə tarixi*
__________________________
*soyadı, adı, atasının adı*

tərəfindən Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparılmasına dair

*Ə R İ Z Ə*

Xahiş edirəm mənə “____” ______________ 20___ il tarixə təyin edilmiş _____________________________________________________
*təyin edilmiş seçkinin (referendumun) adı*
Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparmağa icazə verəsiniz.

Mən ____________________________________________maraqlarını
*(zərurət olduqda namizədin soyadı, adı, atasının adı, siyasi partiyanın, siyasi partiyalar blokunun, qeyri-hökumət təşkilatının və ya referendum üzrə təşviqat qrupunun adı)*
təmsil edirəm.

Qoşma : _____________

**İmza** ___________ ___________________________________
*(ərizəçinin soyadı, adı, atasının adı)*

“____” ____________ 20___ il

_________

***Qeyd***: *1. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*
2. *Referendum keçirilərkən bu sənəd nümunəsində seçki komissiyaları müvafiq olaraq referendum komissiyaları kimi göstərilməlidir.*

*Təlimata 1a saylı əlavə*

___ saylı ___________ seçki dairəsinin dairə seçki komissiyasına

_________________________yaşayan
*yaşayış yerinin ünvanı*

________________________________
*şəxsiyyət vəsiqəsinin*

________________________________
*və ya onu əvəz edən sənədin seriyası, nömrəsi*

___________________________ malik
*və verilmə tarixi*

________________________________
*soyadı, adı, atasının adı*

tərəfindən seçki dairəsinin ərazisində müşahidə aparılmasına dair

*Ə R İ Z Ə*

Xahiş edirəm mənə "____" ______________ 20 ___ il tarixə təyin edilmiş _____________________________________________________
*təyin edilmiş seçkinin (referendumun) adı*
seçki dairəsinin ərazisində müşahidə aparmağa icazə verəsiniz.

Mən ____________________________________________maraqlarını
*(zərurət olduqda namizədin soyadı, adı, atasının adı,*
*siyasi partiyanın, siyasi partiyalar blokunun, qeyri-hökumət təşkilatının*
*və ya referndum üzrə təşviqat qrupunun adı)*

təmsil edirəm.

Qoşma : _____________

**İmza** ___________ ___________________________________
*(ərizəçinin soyadı, adı, atasının adı)*

"____" ____________ 20___ il

_________

***Qeyd**: 1. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*
2. *Referendum keçirilərkən bu sənəd nümunəsində seçki komissiyaları müvafiq olaraq referendum komissiyaları kimi göstərilməlidir.*

*Təlimata 1c saylı əlavə*

Azərbaycan Respublikasının
Mərkəzi Seçki Komissiyasına

____________________yaşayan
*yaşayış yerinin ünvanı*
___________________________
*şəxsiyyət vəsiqəsinin*
___________________________
və *ya onu əvəz edən sənədin seriyası,*
______________________ malik
*nömrəsi və verilmə tarixi*
___________________________
*soyadı, adı, atasının adı*
tərəfindən səsvermə gününədək seçki komissiyasının iclaslarında müşahidə aparılmasına dair

*Ə R İ Z Ə*

Xahiş edirəm mənə "_____"_____________ 20____il tarixə təyin edilmiş ______________________________ zamanı səsvermə gününədək
*təyin edilmiş seçkinin (referendumun) adı*
____________________________________________ iclaslarını müşahidə
*(iclaslarında müşahidə aparılacaq seçki (referendum) komissiyası barədə məlumat)*
etmək üçün xüsusi icazə verəsiniz.

Mən_____________________________________________maraqlarını
*(zərurət olduqda namizədin soyadı, adı, atasının adı və ya siyasi partiyanın, siyasi partiyalar blokunun, qeyri-hökumət təşkilatının və referendum üzrə təşviqat qrupunun adı)*
təmsil edirəm.

Qoşma _____________

**İmza** ___________ ____________________________________
*(ərizəçinin soyadı, adı, atasının adı)*

"____" ____________ 20_____il

_________
***Qeyd***: *1.Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*
*2. Referendum keçirilərkən bu sənəd nümunəsində seçki komissiyaları müvafiq olaraq referendum komissiyaları kimi göstərilməlidir.*

İstifadə olunmuş ədəbiyyat


1. Конституционный контроль в зарубежных странах.Москва, 2007, с.238
2. Ekspress qəz. 20 dekabr 2008
3. Azərbaycan Respublikasının Konstitusiyası ( Əsas Qanun). Bakı 2005